*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*12 (1) 2025*

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:17.12.2024*
*Kabul tarihi |Accepted:25.01.2025*
*Yayın tarihi |Published:25.02.2025*

**Cəmilə Azizova**

*https://orcid.org/0009-0007-8098-7237*
*Teacher of Languages and Literature Department of Azerbaijan State Music University, ANAS PhD Candidate, Azerbaijan, camila.azizova@admiu.edu.az*

*Atıf Künyesi | Citation Info*

Əzizova, C. (2025). Ədəbiyyatşünaslıq Üzrə Rəqəmsal Məlumat Bazalarının Yaradılması İnformasiya Tələbatının Ödənilməsi Probleminin İnnovativ Həlli Kimi. *Akademik Tarih ve Düşünce Dergisi, 12* (1), 709-719. *https://doi.org/10.5281/zenodo.15627714*

# Ədəbiyyatşünaslıq Üzrə Rəqəmsal Məlumat Bazalarının Yaradılması İnformasiya Tələbatının Ödənilməsi Probleminin İnnovativ Həlli Kimi

**Öz**

*Tədqiqat işinin əsas obyekti Azərbaycanda ədəbiyyatşünaslıq üzrə rəqəmsal məlumat bazaları təşkil edir. Tədqiqatın predmeti isə Azərbaycan kitabxanalarında bu istiqamətdə hazırlanan rəqəmsal məlumat bazalarının nəzəri və təcrübi məsələlərinin öyrənilməsindən ibarətdir. Qarşıya qoyulmuş əsas məqsəd dövlət mədəniyyət siyasəti çərçivəsində ədəbiyyatşünaslığa dair informasiya tələbatçılarının sorğularının operativ və əhatəli ödənilməsi məqsədilə rəqəmsal məlumat bazalarının əhəmiyyətini göstərmək, respublikanın iri mədəniyyət müəssisələri olan kitabxanaların, xüsusilə Azərbaycan Milli Kitabxanasının bu sahədə fəaliyyətinin geniş təhlilini verməkdir. Ümumiyyətlə, informasiya cəmiyyəti şəraitində əhalinin elmi-intellektual və milli-mənəvi potensialının inkişafına xidmət göstərən ədəbiyyatşünaslığın inkişafına ciddi təsir edən rəqəmsal məlumat bazalarını öyrənən tədqiqat mövzusu mühüm aktuallıq kəsb edir. Burada ədəbiyyatşünaslığa dair informasiya texnologiyaları əsasında müasir kitabxana-informasiya fəaliyyətinin elmi-nəzəri əsasları araşdırma mövzusu kimi hərtərəfli təhlilə cəlb olunur. Araşdırmanın nəzəri əsasları qloballaşma dövrünün metodoloji ənənələrinə söykənir. Onun metodoloji bazasını ədəbiyyatşünasların, kitabxanaşünasların, kulturoloqların və elmin digər sahələrində çalışan alimlərin tədqiqatlarından nümunələr verməklə, onların fikir və yanaşmalarına müəllifin şəxsi münasibəti təşkil edir.*

BY NC
Creative Commons Licence

*Azərbaycan və digər ölkələrin alimlərinin mövzu ilə əlaqədar tədqiqatları işin metodologiyası və metodikasında mühüm yer tutur. Tədqiqat işində müqayisə, məntiqilik, sistemli yanaşma metodlarına müraciət edilmiş, analiz, sintez, induksiya və deduksiya metodlarından istifadə olunmuşdur. Əldə olunmuş elmi nəticələrdən gələcək elmi işlərdə, ali təhsil müəssisələrində kitabxanaşünaslıq və ədəbiyyatşünaslıq sahəsində mühazirələrin, elmi məruzələrin hazırlanmasında, eləcə də metodik vəsaitlərin və tədris proqramlarının tərtibində istifadə etmək mümkündür.*

***Açar sözlər:*** *Bədii Təfəkkür, Ədəbi Yaradıcılıq, Poetik Fikir, Mənəvi Dəyərlər*

# Creating Digital Databases for Literary Studies as an Innovative Solution to the Problem of Meeting the Demand for Information

***Abstract***

*The main objective of the research is the creation of digital databases on Azerbaijani literature research. The subject of the research is to analyse the theoretical and practical problems of digital databases developed in Azerbaijani libraries in this direction. The main objective is to demonstrate the importance of digital databases in order to respond quickly and comprehensively to the demands for information on literary science within the framework of the state cultural policy and to provide a comprehensive analysis of the activities of libraries, especially the National Library of Azerbaijan, which are important cultural institutions of the republic, in this field. In general, the study of digital databases, which serve the development of scientific-intellectual and national-spiritual potential of society in the conditions of information society and have a serious impact on the development of literary science, is of great importance. Here, the scientific and theoretical foundations of modern library and information activities based on information technologies in literary studies are considered as a comprehensive research topic. The theoretical foundations of the research are based on the methodological traditions of the era of globalisation. The methodological basis is formed from the author's personal attitude to the ideas and approaches of literary critics, librarians, cultural scientists and scientists working in other fields of science, with examples from their research. Researches conducted by scientists from Azerbaijan and other countries on the subject play an important role in the methodology and approach of the study. The methods of comparison, logic and systematic approach were applied in the research and the methods of analysis, synthesis, induction and deduction were used. The scientific results obtained can be used in future scientific studies, in the preparation of courses and scientific reports in the field of librarianship and literary science in higher education institutions, as well as in the development of methodological materials and curricula.*

***Keywords:*** *Artistic Thought, Literary Creativity, Poetic Thought, Moral Values*

## Giriş

İnformasiya və biliklər cəmiyyəti şəraitində kitabxana-biblioqrafiya proseslərinin rəqəmsallaşdırılması və tələbatçılara virtual xidmətlərin çeşidləri mütəmadi olaraq genişlənir. Bu proses kitabxanaların çağdaş dövrümüzün qlobal çağırışlarına fəal surətdə qoşulması və istifadəçi sorğularının operativ ödənilməsi ilə səciyyələnir. Şübhəsiz ki, müxtəlif elmi istiqamətlərdə olduğu kimi ədəbiyyatşünaslıq üzrə zəngin sənəd-informasiya resurslarının daim köhnəlməsi ilə onların biblioqrafik təsvirlərinin arxivləşdirilməsi və rəqəmsal verilənlər bazası yaradılması təcrübəsi alim və tədqiqatçıların müəyyən bir təcrübə və tədqiqat sahəsini inkişaf etdirməyə və başa düşməyə davam etməsini təmin etmək üçün mühüm rol oynayır. Son illərdə innovasiya texnologiyalarının tətbiqi nəticəsində Azərbaycan kitabxanalarının fəaliyyətində ədəbiyyatşünaslıq üzrə vahid əlamətə görə birləşən sənədlərin və nəşrlərin bir kompüter şəbəkə məkanına toplanması təcrübəsi xeyli inkişaf etmişdir. Ədəbiyyatşünaslığa dair müxtəlif mövzulara, görkəmli ədiblərin əsərlərinin, onların həyat və yaradıcılığını əks etdirən nəşrlərin, audiovizual materialların elektron ekvivalentinin hazırlanması yolu ilə ərsəyə gətirilən elektron məlumat bazalarının yaradılması praktikası diqqəti cəlb edir.

XX əsrin 90-cı illərindən başlayaraq yeni informasiya-kommunikasiya texnologiyaları kitabxana-biblioqrafiya proseslərinə nüfuz etməyə başladı və biblioqrafiyaşünaslıq və biblioqrafik fəaliyyət də daxil olmaqla bir çox sahələrin inkişafına səbəb oldu (Qasımlı & Məhəmmədli, 2024a; Qasımlı & Məhəmmədli, 2024b). Mütəxəssislər elmi, kitabxanalara dair praktiki layihələrin həyata keçirilməsi sahəsində fəaliyyətə başlamışdır. Şəki-Zaqatala bölgəsinin və Azərbaycanın digər bölgələrinin xüsusiyyətlərinin müəyyən edilməsi, sənaye, kənd təsərrüfatı, təhsil və mədəniyyət haqqında məlumatlar. Resursların təmin edilməsi, müvafiq informasiya qurumları ilə inteqrasiya imkanları, oxucu tələbatının araşdırılması və təmin edilməsi problemlərinin həlli aktual problemlərdən hesab olunur. Bu məqalə problemin öyrənilməsinə və müasir dünya təcrübəsinə əsaslanan təkliflərin təhlilinə həsr edilmişdir. Regionlarda kitabxana-informasiya infrastrukturunun yaxşılaşdırılması üçün elmi əsaslarla tövsiyələr irəli sürülüb (Məhəmmədli, 2024; Mahammadi, 2024). Müasir dövrdə Azərbaycan Respublikasının xüsusi sahələrindən biri də təhsil sistemidir. Azərbaycan Respublikası Prezidentinin qəbul etdiyi son qərarlarda təhsil sisteminin inkişafı, yeni innovativ metodların tətbiqi və ali təhsil müəssisələrində, professor-müəllim heyətində və tələbələrdə (Azərbaycan Respublikası Prezidentinin 22 may 2009-cu il tarixli 295 nömrəli Sərəncamı ilə islahatların istiqamətləri müəyyən edilmişdir) professor-müəllim heyətinin sosial vəziyyətinin yaxşılaşdırılması və Azərbaycanda ali təhsilin beynəlxalq səviyyəyə yüksəldilməsi layihələri

həyata keçirilir. Bu mənada ali təhsil məktəblərində yeni innovativ elm və təhsil prinsiplərinin, texnologiyalarının tətbiqi çərçivəsində çevik elmi-tədqiqat-istehsalat sisteminin yaradılması müasir dövrün aktual məsələlərindən biridir (Mammadov, Talibov, Huseynov, Abdullayev & Mammadova, 2018). Ədəbiyyatşünaslıq elmində rəqəmsal verilənlər bazalarının yaradılması, çox vaxt sadəcə hazırlıq hissəsi kimi qəbul olunur. Bununla belə, onlayn ədəbiyyat məlumat bazasını tərtib edənlərin fikrincə o, eyni zamanda tədqiqat məkanı, yayılma forması və özlüyündə bir mədəni əsərdir. Verilənlər bazaları heç bir şəkildə adi konteynerlər deyil, onlar müxtəlif prosesləri, o cümlədən saxlama, paylama və təqdimatları yerinə yetirir (Electronic Literature as a Model for Creativity and Innovation in Practice, 2019). Elmi fəaliyyət və bədii təcrübə bir-birinə bağlıdır: alimlər bu sahəni təsvir etmək və araşdırmaq üçün cəhdlər edirlər. Bu məqsədlə, öz işlərində məlumat bazalarına müraciət edirlər və verilənlər bazası istehsalı bu sahəni daha da inkişaf etdirir ki, bu da onlayn ədəbiyyatın yayılmasını təmin edir.

## 1. Məsələnin həlli

Müasir dövrdə ənənəvi kitabxanaların, həmçinin informasiya-kommunikasiya texnologiyalarının fəaliyyətinin texniki və texnoloji əsasları onların funksiyalarının həyata keçirilməsinin yeni formasını – elektron məlumat bazalarını yaratmışdır. Bu cür informasiya mənbələrinə olan tələbat kitabxananın virtual arayış xidmətlərindən daxil olan müraciətlərin təhlili ilə təsdiqlənir ki, bu da istifadəçilərin elektron sənədlərin tam mətnlərinə məsafədən çıxışı təmin etmək ehtiyacının artdığını göstərir. Bu ehtiyacları nəzərə alaraq, Azərbaycanın elmi kitabxanaları internet vasitəsilə əldə edilə bilən elektron sənədlər kolleksiyalarının formalaşdırılmasını öz prioritetlərindən biri hesab edir.

Kitabxana saytları müasir dövrdə böyük rol oynayır, çünki onlar bilik və məlumat əldə etmək üçün asan və rahat bir yol təqdim edir. Bu saytlar kitabları onlayn olaraq oxumağa, axtarış etməyə və ya yükləməyə imkan verir (Məhəmmədli, 2024). Elmin müxtəlif sahələrində, eləcə də ədəbiyyatşünaslıq üzrə informasiyanın kitabxalarda müasir təqdimedilmə metodu olan elektron məlumat bazaları istifadəçilərə onları maraqlandıran predmet (mövzu, istiqamət, şəxs və s.) üzrə ən müxtəlif nəşrləri kitabxananın internet şəbəkəsindən əldə etməyə imkan verir (İsmayılova, 2002). Kitabxana mütəxəssisləri ədəbiyyatşünaslığa dair rəqəmsal məlumat bazalarını hazırlayarkən, nəinki çalışdıqları kitabxananın fondunda olan sənədlərdən, həmçinin digər kitabxanalarda olan informasiya resurslarından və müəlliflik hüququ gözlənilməklə internet materillarından istifadə edirlər.

Ədəbiyyatşünaslığa dair peşəkar informasiya fəaliyyəti baxımından internetin bu sahədə bütün məcmu potensialının əsas və ən qiymətli komponentlərindən biri, məhz elektron məlumat bazalarıdır. “Elektron məlumat bazası” ifadəsinin özü nisbətən yenidir və hələ ümumi qəbul olunmuş elmi şərhə malik deyildir. Elektron (rəqəmsal, virtual) məlumat bazaları vasitəsilə müxtəlif tədqiqatçılar müxtəlif məzmunları başa düşürlər: istənilən kompüterdəki faylların sadə siyahısından başlayaraq internetdəki bütün məzmuna qədər. Fikrimizcə, rəqəmsal məlumat bazaları naviqasiya və axtarış vasitələri ilə təchiz edilmiş, heterogen elektron sənədlərin sifarişli kolleksiyaları kimi müəyyən edilə bilər. Bu şərh, bizə rəqəmsal məlumat bazalarının mühüm fərqləndirici xüsusiyyətini müəyyən bir strukturun və sənədlərdə oriyentasiyanı təmin edən naviqasiya və axtarış vasitələrinin məcburi olması kimi vurğulamağa imkan verir. Bu, vahid iyerarxik struktur və indeksləşdirmə sistemi ilə birləşdirilməyən nizamsız fayl massivlərini “elektron məlumat bazası” anlayışından çıxarmağa imkan verir. “Heterogen” termini rəqəmsal məlumat bazalarını yalnız bir nəşrin nömrələrini ehtiva edən dövri nəşrlərin arxivlərindən ayırmağa imkan verir.

Elektron məlumat bazası fenomenin mahiyyəti potensial məlumat istehlakçısı tərəfindən məlumat massivinin mənimsənilməsi imkanlarını məhdudlaşdıran maksimum həddə çatmaqdır (Rettberg, 2012). Başqa sözlə desək, müəyyən bilik sahəsinə həsr olunmuş nəşr-lərin sayı o qədər çox olmuşdur ki, o, hətta nisbətən dar bilik sahələri daxilində belə, yeni məlumatların bütün həcmini mənimsəməkdə fərdin fiziki imkanlarını üstələyir. Təəccüblü deyildir ki, fenomenlə bağlı baxışların üstünlüyü tədqiqatı təkrarlamağın artıq həyata keçirilmiş oxşar işlərin nəticələrini tapmaqdan daha asan və daha ucuz olması ilə səciyyələnir. Belə bir vəziyyətdə, idarəolunmaz görünən məlumat uçqununu ram etməyə imkan verən və bizi məlumatların saxlanması və əldə edilməsi imkanlarına yeni bir nəzər salmağa məcbur edən elektron məlumat bazalarının formalaşması mühüm əhəmiyyətə malikdir.

Elektron məlumat bazalarına daxil edilmiş rəqəmsal sənədlərin əsas üstünlüyü onlarda axtarışların yalnız başlıq səhifəsindəki məlumatlara görə deyil, həm də bütün mətn boyunca aparıla bilməsi ilə əlaqədardır. Bu xüsusiyyət informasiya axtarışı imkanlarını kökündən genişləndirir və kompüter faylları şəklində təqdim edilən nəhəng sənədlər massivlərinə minlərlə nəşrdən müvafiq mənbələri vurğulayaraq bir neçə dəqiqə ərzində baxmaq mümkün olur. İnformasiya fəaliyyətində tətbiq imkanları nöqteyi-nəzərindən şəbəkə elektron məlumat bazaları məntiqi olaraq iki əsas kateqoriyaya bölünür: mətnlərin pulsuz elektron kolleksiyaları və kommersiya tam mətnli verilənlər bazaları.

Mövzu üzrə öz araşdırmaları ilə məşhurlaşmış rus tədqiqatçı M. R. Koqalovski elektron məlumat bazaları üçün informasiya resursları kolleksiyalarının yaradılmasını yeni sinif informasiya sistemlərinin inkişafının mühüm istiqamətlərindən biri hesab edir (Shemberko & Sliva, 2016). Kolleksiyada resursların birləşdirilməsi meyarları məzmun əlaqəsi, gəlir mənbə-ləri, istifadəçi məqsədi, giriş metodu və s. ola bilər. Hər hansı bir kolleksiyanın ən mühüm xassələri arasında tədqiqatçı onun sistemləşdirilməsini, təyinatını, mənşəyini, informasiyanın müəyyən edilməsi metodunu qeyd edir. Bu zaman informasiya resursları və onların təsviri qaydaları, informasiya texnologiyalarının əsas növləri, informasiya ehtiyatlarının təqdimat xüsusiyyətləri və heterogenliyi, onların paylanması, həcm xüsusiyyətləri, bazanın tərkibinin dinamiklik dərəcəsi və informasiya ehtiyatlarının vəziyyəti, kolleksiyanın tamlıq dərəcəsi və sosial əhəmiyyətinin xüsusiyyətləri və s. nəzərə alınmalıdır.

Azərbaycan Milli Kitabxanasının zəngin və çoxillik iş təcrübəsinin öyrənilməsi göstərir ki, ədəbiyyatşünaslıq üzrə hazırlanmış elektron məlumat bazalarında vizual materiallar, şəkillər, multimedia vasitələri bazanın məqsədinə, təyinatına görə strukturlaşdırılır və bu düzülüşə müvafiq axtarış sistemi təşkil olunur. Kitabxananın bu sahədə ilk praktiki işi 2008-ci ildə "Mir Cəlal irsi" adı ilə tərtib edilmiş rəqəmsal informasiya bazasıdır (Məlumat bazaları, 2024). Təqdirəlayiqdir ki, keçən 15 illik zaman dilimində kitabxanada bu istiqamətdə həyata keçirilən uğurlu layihələr genişlənmiş, elektron məlumat bazalarının tərtibi metodikası təkmilləşdirilmiş və zəngin təcrübə toplanmışdır.

Ədəbiyyatşünaslıq üzrə müxtəlif elektron məlumat bazaları Milli Kitabxananın https://www.millikitabxana.az/ saytının "E-məlumat bazası" adlı xüsusi bölməsində aşağıdakı şəkildə təqdim olunan formada istifadəçilərin ixtiyarına verilmişdir.



Azərbaycan Milli Kitabxanada hazırlanan ədəbiyyatşünaslığa dair elektron məlumat bazalarından biri də dahi dramaturqumuz Hüseyn Cavidin həyat və yaradıcılığının təbliğinə həsr olunmuşdur (Məlumat bazaları, 2024). "Azərbaycan ədəbiyyatının söz və fikir zadəganı – Hüseyn Cavid" adlı bu rəqəmsal informasiya mənbəyinə daxil edilmiş materiallar "Rəsmi sənədlər", "Həyat və yaradıcılığı", "Həyat və fəaliyyətinin əsas tarixləri", "Hüseyn Cavidin cənazəsinin Azərbaycana gətirilməsi", "Görkəmli şəxslər Hüseyn Cavid haqqında", "Əsərləri", "Haqqında", "Xatirəsinin əbədiləşdirilməsi", "Fotoqalereya" bölmələrində qruplaşdırılmışdır. Elektron məlumat bazasının "Rəsmi sənədlər" bölməsində materiallar iki yarımbölmədə: "Sərəncamlar" və "Nitqlər, çıxışlar, məruzələr" sistemləşdirilmişdir. Böyük şairin şəxsiyyətinə dövlət qayğısını təcəssüm etdirən "Sərəncamlar" yarımbölməsində aşağıdakı mənbələr əks xronoloji qaydada informasiya tələbatçılarının diqqətinə çatdırılır:

- Hüseyn Cavidin 140 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı;
- Böyük Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin 135 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı;
- Hüseyn Cavidin 130 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı;
- Hüseyn Cavidin 125 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı;
- Hüseyn Cavidin 120 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.

Bu sənədlərdə fəlsəfi müdrikliyin və bədii kamilliyin ahəngdar vəhdətini yaratmaqla öz adını Azərbaycan ədəbiyyatı tarixinə əbədi olaraq həkk etdirmiş Hüseyn Cavidin yubileylərinin layiqincə keçirilməsi məsələləri əks olunmuşdur. Bazanın "Nitqlər, çıxışlar, məruzələr" yarımbölməsində Ulu öndərimiz Heydər Əliyevin qüdrətli sənətkar haqqında 1992-2002-ci illərdə müxtəlif tədbirlərdə etdiyi çıxışlar və nitqlər əks xronoloji qaydada qruplaşdırılaraq istifadəçilərə təqdim olunur. Rəqəmsal informasiya resursunun "Həyat və yaradıcılığı" adlı bölməsində böyük dramaturqun zəngin həyat və yaradıcılıq yoluna nəzər salınır. Burada akademik Teymur Kərimli və şairin ev muzeyinin direktoru, filologiya elmləri doktoru Gülbəniz Babaxanlı ədibin həyat salnaməsinin mühüm aspektlərini və bədii irsinin əsas cəhətlərini oxuculara çatdırırlar. "Həyat və fəaliyyətinin əsas tarixləri" bölməsində isə mütəfəkkir şairin bioqrafiyasını əhatə edən hadisələrin xronologiyası əks olunur.

“Hüseyn Cavidin cənazəsinin Azərbaycana gətirilməsi” bölməsinə Ümummilli liderimizin təşəbbüsü və rəhbərliyi altında şairin 100 illik yubileyi münasibətilə nəşinin Sibirdən doğma vətəninə gətirilməsi ilə bağlı məqalə daxil edilib. Ədalət qəzetinin 2012-ci il 9 oktyabr sayında Əməkdar jurnalist, daxili xidmət polkovniki Hikmət Xudiyevin (Cəmilzadə) müəllifi olduğu məqalədə bu tarixi hadisə Azərbaycan ziyalısının xatirəsinə xalq ehtiramının təcəssümü kimi dəyərləndirilir. Elektron məlumat bazasının maraqlı bölmələrindən biri olan “Görkəmli şəxslər Hüseyn Cavid haqqında”da dahi siyasi lider Heydər Əliyevin, akademik Məmməd Cəfərin, publisist Qulam Məmmədlinin, professor Timuçin Əfəndiyevin, akademik Rafael Hüseynovun, professor Yaşar Qarayevin, Xalq artistləri Mehdi Məmmədovun, Rza Təhmasibin, professor Bəkir Nəbiyevin, şair Abdulla Şaiqin, ictimai-siyasi xadim Məhəmməd Əmin Rəsulzadənin, şair Mikayıl Müşfiqin, Xalq şairi Rəsul Rzanın və digər görkəmli şəxsiyyətlərin böyük dramaturq barədə səsləndirdikləri fikirlər toplanıb.

Belə bir zəngin virtual sənəd-informasiya resursunun ən iri bölməsi “Əsərləri” adlanır. Materiallar bu hissədə müxtəlif yarımbölmə daxilində sistemləşdirilib: “Kitabları”, “Məqalələri”, “Dövri nəşrlərdə və məcmuələrdə dərc edilmiş əsərləri”, “Cavid hikməti: aforizmləri”, “Sözləri Hüseyn Cavidindir – notlar”, “Əsərlərinə çəkilmiş filmlər”. Göründüyü kimi, bölmə daxilində əks olunmuş sənədlərin tipləri və janrları öz müxtəlifliyi baxımından fərqlənir. Belə ki, burada mətni, ideoqrafik və multimedia resursları informasiya tələbatçılarının nəzərinə çatdırılır. Məsələn, “Sözləri Hüseyn Cavidindir – notlar” adlı yarımbölməyə Fikrət Əmirov, Cahangir Cahangirov, Tamilla Məmmədzadə, Şəfiqə Axundova və Eldar Mansurov kimi məşhur bəstəkarların Cavid əfəndinin şeirlərinə həsr etdikləri musiqi əsərlərinin notları daxil edilib. Rəqəmsal məlumat bazasının “Haqqında” adlı bölməsində dahi şairin həyat və yaradıcılığına dair çap olunmuş kitablar, məqalələr, avtoreferatlar, dissertasiyalar və onun haqqında lentə alınmış filmlər ayrı-ayrı bölmələrdə əks olunub. Bu zəngin informasiya resursundan istifadə etmək üçün aşağıda göstərilən QR-kod vasitəsilə internet veb ünvanına daxil olmaq mümkündür. Təhlilə cəlb etdiyimiz elektron məlumat bazası nümunəsində bir daha aydın olur ki, rəqəmsal sənədlər toplusu belə bazaların əsas elementidir ki, bu da sənədlərin tam mətnləri ilə yanaşı, istifadəçilərə onlarla işləmək üçün funksional imkanlar təqdim edir. Zənnimizcə, elektron sənədlər toplusunun virtual məlumat




bazasına çevrilməsinin onlarda müəyyən tələblərə uyğun olaraq məlumatın qorunmasına və səmərəli istifadəsinə diqqət yetirilməsi şərtinin müəyyən edilməsi, olduqca mühüm və düzgün yanaşmadır. Çünki, bu rəqəmsal məlumat bazaları elektron sənəd kolleksiyasının əldə edilməsində ardıcıllıq (məlumatların mövcudluğundan ibarətdir) tematik profil, bazadakı sənədlərin bir-biri ilə əlaqəsi, seçilmiş sənədlərin növünün dəqiqliyi, istifadəçilərin dəqiq çoxaldılmış və identifikasiya vasitələri ilə təmin edilməsi, naviqasiya, məlumatın axtarışı, baxılması və ixracı kimi məsələləri özündə birləşdirir.

Onu da əlavə etmək yerinə düşər ki, qlobal şəbəkələrin biblioqrafik resursları geniş və müxtəlifdir. Bunlara şəxsi səhifələrdəki çoxsaylı biblioqrafiya siyahıları, kitabxananın veb-saytlarında yeni əldə edilmiş məlumatların və ya mövzu indekslərinin siyahıları, müxtəlif elektron nəşrlərdəki mənbələrin siyahıları və daha çox oxşar materiallar daxildir. Lakin onla-rın əsas komponentləri elektron kitabxana kataloqları və biblioqrafik məlumat bazalarıdır. Bu bölmə çox ixtiyaridir, çünki elektron kataloq əslində verilənlər bazasının özəl versiyasıdır (hissə və bütövlük arasındakı əlaqə). Bununla belə, bu konkret halda bizim üçün belə bir bölgü aparmaq mümkün görünür, çünki biblioqrafik nöqteyi-nəzərdən kataloqlar və verilənlər bazaları daha bir çox mühüm fərqə malikdir: kitabxana kataloqları, nadir istisnalarla, tərkibini sənədlər haqqında məlumatla məhdudlaşdırır. bütövlükdə (kitablar, xəritələr, qeydlər, video kasetlər və s.). Biblioqrafik məlumat bazaları, əksinə analitik materiallar (jurnallardan məqalələr, davam edən nəşrlər, toplular və daha az hallarda qəzetlər) haqqında məlumatları daha çox ehtiva edir. Dünyada ən iri elektron informasiya bazası olan – Thomson Reuterse-in Elm Sitatlar Bazasında biblioqrafik məlumat, sitat məlumatı və tam mətnlərə keçidlər verilir. Bu baza müxtəlif elm sahələrində, o cümlədən ədəbiyyatşünaslığa dair 12,500 jurnal və 160,000 konfrans materiallarının axtarışını təmin edərək, maraqlandıran məsələlər üzrə ən aktual məlumatları əldə etməyə imkan verir.

## Nəticə

Tədqiqat işində əldə olunan elmi qənaətləri ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, verilənlər bazası forması onlayn ədəbiyyatda getdikcə daha çox təsir edir, araşdırmalara nüfuz edir və özünəməxsus bir estetik dəyər qazanır. Təcrübədə yaradıcılıq modeli kimi elektron ədəbiyyat bu sahədə biliklər üzrə verilənlər bazasının bir hissəsi olduğunu sübut edir, onun formal xüsusiyyətlərini qəbul edən əsərlərdən ibarət tədqiqat toplusu kimi tərtib olunur. Deməli, strukturca sənədlərin tam mətnlərindən, onların biblioqrafik təsvirlərindən, naviqasiya və xidmət vasitələrindən ibarət, müvafiq tələblərə cavab verən elektron kolleksiyalar toplusunu rəqəmsal məlumat bazası adlandırmaq olar. Elmi fəaliyyətlə bədii təcrübənin bir-birinə qarışdığı məqamda elm adamları bu sahəni təsvir etməyə və tədqiq etməyə çalışırlar, öz əsərlərində məlumat bazalarına müraciət edirlər. Artıq bu məqam təhsil psixologiyasında formalaşıbdır.

Elmi sahə kimi qəbul edilən təhsil psixologiyası iki elementlə paralel olaraq araşdırılır. Təhsil psixologiyası bir elm sahəsi olsa da, eyni ad altında təklif olunan bir kursla eyniləşdirilən bir anlayış olaraq da tanınır (Isgandar, vd., 2024). Verilənlər bazalarının yaradılması ədəbiyyatşünaslıq sahəsini inkişaf etdirir ki, bu da müxtəlif şəbəkə resurslarının oxucuların informasiya təminatında istifadəsinə müsbət təsir göstərir. Verilənlər bazasına daxil edilmiş əsərlər rəqəmsal mədəniyyətdəki fərqli rollarını əks etdirir və təhlillərimiz məlumat bazalarının informasiya yayım platformaları, bədii artefaktlar kimi elektron ədəbiyyat sahəsində oynadığı çoxsaylı rollara və sahənin özünün qurulmasına tənqidi düşüncə üçün metodoloji vasitə kimi işıq salır. Xüsusilə, məlumat bazalarının onlayn ədəbiyyatla gücləndirilmiş üç funksiyası: onlayn şəxsiyyət təyinatı və məlumatların istifadəsi haqqında düşünmək; əbədiləşdirmə (qorunma) və empatiya təlimini özündə birləşdirir.

## Ədəbiyyat Siyahısı

*Electronic Literature as a Model for Creativity and Innovation in Practice*. (2019). Electronic Literature Knowledge Base, https://elmcip.net/ knowledgebase.

Isgandar, S. M., vd. (2024). On the history and role od education psychology in pedagogy: based on the example of Azerbaijan. *Sep-oct, Revista Universidad Y Sociedad 16* (5), 303-309.

İsmayılova, S (2002). Ədəbi biblioqrafik mənbələr ədəbiyyatşünaslığın biblioqrafik informasiya təminatında mühüm vasitə kimi. *Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal*, 1, 97-101.

Qasımlı, H., & Məhəmmədli, D. (2024a). Turizm sahəsi üzrə "İnformasiya tələbatı" konsepsiyası. *Akademik Tarih ve Düşünce Dergisi, 11*(6), 4588-4595.

Qasımlı, H., & Məhəmmədli, D. (2024b). Biblioqrafik Xidmət Kitabxana-İnformasiya Mərkəzlərində Turizmə Dair Sənəd Axınının Müəyyənləşdirilməsinin Başlıca Komponenti Kimi. *Akademik Tarih ve Düşünce Dergisi*, *11*(6), 4718-4726.

Mahammadi, D. H. (2024). Issues of Legal, Scientific, Theoretical, Methodological and Practical Significance as an Important Component of the Informatization of the Library Infrastructure of the Republic (Strategy For The Development of Libraries in the Regions of Azerbaijan). *Akademik Tarih ve Düşünce Dergisi*, *11*(1), 611-619.

Mammadov, J., Talibov, N., Huseynov, A., Abdullayev, L., & Mammadova, S. (2018, July). Development of a conceptual model of multi-skilled specialist training. In *4th International Conference on Higher Education Advances (HEAD'18)* (pp. 1615-1622). Editorial Universitat Politècnica de València.

Məhəmmədli, D. (2024). Kitabxana Saytlarının Funksiyaları və Onların Təsnifatı. *Akademik Tarih ve Düşünce Dergisi*, *11*(6), 4708-4717.

*Məlumat bazaları,* (2024). Elektron resurs, Azərbaycan Milli Kitabxanasının rəsmi saytı, https://www.millikitabxana.az/databases

Rettberg, S. (2012). Collective Memory and the Development of a Field: Building the Elmcip Electronic Literature Knowledge Base. *The Digital Subject: Questioning Hypermnesia. International and Transdisciplinary Conference*, Keynote Address.

Shemberko, L. B. & Sliva, A. YA. (2016). Obzor literatury: informatsiya ot izdateley, nekotoryye stat'i, printsipy sotrudnichestva i strategiya politiki. Nauchno-tekhnicheskaya informatsiya. Seriya 1: *Organizatsiya i metodika informatsionnoy raboty*, (10), 22-32.